**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№355/1** **13 aprel 2023-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə**

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 10.4-cü "Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndinə müvafiq olaraq hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"a dair Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat" bəyənilsin (əlavə olunur).

2. Auditorlar Palatasının struktur bölmələri tərəfindən hesabat ili ərzində 2022-ci il üzrə iş planında nəzərdə tutulan 100-ə yaxın, o cümlədən:

- audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair layihələrin hazırlanması və müvafiq qurumlarla razılaşdırılması;
- auditor fəaliyyəti ilə əlaqədar bir sıra təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması;
- auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması;
- kiçik və orta auditor təşkilatları və sərbəst auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramların əldə edilməsi və təşviqi;
- auditor seçiminə dair müsabiqə prosedurlarının təkmilləşdirilməsi;
- auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsi və kibertəhlükəsizliyə nəzarətin həyata keçirilməsi;
- Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, şərhinin hazırlanması və auditorlara çatdırılması;
- 2021-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması;
- Azərbaycan Respublikası Prezidentinin "Dövlət Nəzarəti İnformasiya Sistemi"nin yaradılması haqqında 2021-ci il 30 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası"ndan irəli gələn məsələlərin icrası və nəticələri barədə məlumatların hazırlanması və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsi;
- 2022-ci il 16 sentyabr tarixində "Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi və həmin konfransa dair materialların, "Qütb ulduzumuz", "Rəqəmsal iqtisadiyyatda şəffaflıq", "Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə metodik materiallar toplusu" kitablarının nəşr etdirilməsi;

- 2022-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması və keçirilməsi;

- auditor adı almaq üçün imtahanların təşkil edilməsi;

- Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi;

- beynəlxalq və xarici audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi;

- Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları ilə Palata üzvlərinə verilmiş tapşırıqların icra vəziyyətinin təhlili;

- auditor təşkilatlarında daxili nəzarətin həyata keçirilməsinin monitorinqi və təhlili;

- auditin aktual problemləri üzrə konfransların, simpoziumların, “dəyirmi masa”ların, seminarların və ustad dərslərinin təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi;

- sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması;

- Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması və sair tədbirlərin həyata keçirilməsi müsbət hal kimi dəyərləndirilsin.

3. 2022-ci il üzrə hesabatın hazırlanmasına məsul olan icraçılara (S.Gülməmmədov, Q.Bayramov, N.Talıbov, F.Qarayev, N.Quliyeva) tapşırılsın ki, cari ilin aprel ayının sonunadək “Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və digər aidiyyəti qurumlara göndərilməsi təmin edilsin.

4. Palata sədrinin müşaviri F.Qarayevə, Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, cari ilin 15 iyun tarixinədək “Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi və ingilis dilinə tərcümə olunmuş variantının Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilsin.

5. Məsul icraçılara (N.Talıbov, F.Qarayev, N.Quliyeva) tapşırılsın ki, bir ay ərzində “Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətinin yekunlarına dair hesabat”ın strukturunun təkmilləşdirilməsinə dair təkliflərini təqdim etsinlər.

6. Bu qərarın və “Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**